# Alqışa səbəb olan ifa

## Almaniyanın Trossingen Musiqi Universitetinin tələbəsi Murad Abasovun möhtəşəm çıxışı

Murad Abasov ölkəmizi beynəlxalq müsabiqə və festivallarda uğurla təmsil edən, Azərbaycan incəsənətini, musiqisini dünyaya tanıdan istedadlı pianoçu gənclərimizdən biridir. O, 1998-ci ildə Bakıda musiqiçi ailəsində anadan olub. Kiçik yaşlarından musiqiyə həvəs göstərdiyindən valideynləri onu Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Orta ixtisas musiqi məktəb-studiyasına qoyublar. Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidovun təsis və rəhbərlik etdiyi bu məktəbdə Murad fortepiano ixtisası üzrə təcrübəli pedaqoq Ayşə Əliyevanın sinfində 11 il təhsil alıb.

Burada oxuduğu illər ərzində o, müəllimlərinin sevimli və istedadlı şagirdlərindən biri olub. Respublikamızda və ondan kənarda keçirilən müxtəlif müsabiqələrin laureatı, tanınmış pianoçu-pedaqoqların ustad dərslərinin uğurlu iştirakçısı olan bu istedad sahibi hələ 15 yaşında ikən Üzeyir Hacıbəyli adına Dövlət simfonik orkestri ilə Azərbaycan Dövlət Filarmoniyasında və Qəbələdə keçirilən VI Beynəlxalq festivalda macar bəstəkarı Ferens Listin mürəkkəb konsertini ifa edərək böyük uğur qazanıb.

2015-2016-cı tədris ilini Murad üçün həm mürəkkəb, həm də ən uğurlu il hesab etmək olar. O, Almaniyanın Trossingen Musiqi Universitetinə qəbul olunub. Orada da oxuduğu bir il ərzində bir neçə müsabiqələrin iştirakçısı olaraq, yüksək nəticələr əldə edib. Bu ilin 23-27 may tarixlərində də o, Almaniyanın Mylakker şəhərində "Baden-Vyurtenberqdə musiqi istedadları" adlı beynəlxalq müsabiqədə iştirak edərək ən yüksək mükafata layiq görülüb. Müsabiqənin münsiflər heyətinin üzvü olan Tamara Poddubnaya onun ifasını yüksək qiymətləndirərək öz sinfində təhsil almaq üçün ABŞ-ın "Loung Island Conservatory"yə dəvət edib. Həmçinin, Murad münsiflər heyəti tərəfindən Myulakker şəhərində solo konsert vermək üçün təklif almış, eləcə də 28 - 31 iyul tarixlərində keçirilən Almaniyanın Geilenkirchen şəhərində "Euregio Piano Award" adlı IV Beynəlxalq müsabiqədə iştirak üçün dəvət olunub və orada da növbəti nailiyyəti qazanıb.

Onun bir ifaçı kimi yetişməyində, müsabiqələrdə uğur qazanmasında Ayşə Əliyevanın əməyi danılmazdır. Gənc ifaçının hər hansı bir ölkədə çıxışını izləmək üçün valideynləri ilə bərabər müəlliminin də mütləq şəkildə iştirakı hər zaman şagirdinə dəstək və mənəvi dayaq olub.

Almaniyanın Trossingen Musiqi Universitetinin tələbəsi, iştirakçılar arasında ən kiçik 18 yaşlı ifaçı, yeganə azərbaycanlı Murad Eldar oğlu Abasov Almaniyanın Geilenkirchen şəhərində "Euregio Piano Award" adlı IV Beynəlxalq musabiqəsinin laureatı olaraq ən yüksək, 95 balla I yerə layiq görülüb və dördüncü dəfə birinciliyə imza atıb.

Onu da qeyd edim ki, 18 yaşlı ifaçı 4 kateqoriya üzrə aparılan müsabiqənin yaş məhdudiyyəti qoyulmayan "C" kateqoriyasında, Serbiya, Malayziya, Avstraliya, Çin, Danimarka, İtaliya, Yaponiya, Polşa kimi müxtəlif ölkələrdən və aralarında 35 yaşı keçmiş daha təcrübəli ifaçılar olan, müxtəlif təvəllüdlü 12 iştirakçı ilə bərabər eyni səhnəni paylaşıb. Proqramı İ.S.Baxın Prelüd və fuqası (As-dur, YTK II cild) ilə açaraq o, daha sonra F.Şopenin Etüdü (C-dur, op. 10, № 1) ilə canlanma yaratmış və çıxışını F.Şopenin Balladası (g-moll № 1, op. 23) ilə tamamlayaraq münsiflər heyətini və o cümlədən bütün dinləyiciləri riqqətə gətirib.

Yarışmanın ciddi və dürüst qaydalarına əsasən heç bir münsif iştirakçıya müsabiqə bitmədən yaxınlaşıb fikir və rəy bildirməməli və nəticələr yalnız son Qala konsertə qədər məxfi saxlanılmalı idi. Lakin Muradın bu çıxışı onları o qədər təəccübləndirmişdi ki, hətta münsiflər heyətinin üzvlərindən biri, Köln Konservatoriyasının professoru şəxsən özü fasilə zamanı Murada yaxınlaşaraq, onun ifası haqqında müsbət rəyini bildirib. Müsabiqənin digər şərtlərindən biri də iştirakçının istəyinə bağlı olaraq, ifaçıların öncədən münsiflər heyətinin üzvlərindən ustad dərsləri almasıdır. Bu dərslərdə iştirak etməsi ifaçının müsabiqəyə hazırlığını daha asanlaşdırır. Onların tələb və istəkləri ilə yaxından tanış olduqları üçün həm o ab-havaya alışır, həm də daha artıq təcrübəyə yiyələnmiş olurlar. Ancaq vaxt məhdudiyyətindən irəli gələrək, Murad həmin ustad dərslərində iştirak etmədən bilavasitə müsabiqəyə qatılmış və buna baxmayaraq yenə də yüksək ifa nümayiş etdirməyi bacarmışdır. Ələlxüsus, F.Şopenin Balladasının ifası yaşına görə gözlənilməz bir təəssürat yaradaraq böyük alqışa səbəb olmuşdur. Nəzərə çatdıraq ki, onun məhz bu çıxışı Almaniya mətbuatında "Ən böyük alqışa səbəb olan ifa" sərlövhəsi ilə dərc olunan məqalədə işıqlandırılması da maraqlı bir faktdır. İfaçının özünün qeyd etdiyinə görə, bu əsəri ifa etmək onun hələ bir neçə il əvvəldən arzusu olmuşdur. Lakin onun yaş həddi o cəsarətə imkan vermirdi. Məhz belə bir məqamda, həmin yarışmada Muradın illər öncədən ürəyində bəslədiyi və səbirsizliklə gözlədiyi an gəlib çatdı.




Oxuduğu hazırkı təhsil ocağında hələ bir ildir ki, dərs aldığı müəllimi T.Baynov da Murada tələbə kimi deyil, artıq öz yolu və dəst-xətti, öz imzası olan bir ifaçı kimi yanaşaraq, o cümlədən böyük ümidlər bəsləyərək: "Şopeni Muradın interpretasiyasında olduqca çox bəyənirəm. Mən onu böyük konsert səhnələrinin pianoçusu olaraq görürəm. Onda bu potensialı açıq-aydın hiss etmək olur. O, "Gold Stück" - "Qızıl parçasıdır" - deyə qeyd edir.